KÜRD xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

# DÎPLOMAT

www.Diplomata-kurdi.com

№ 35 (146), 8-15 dekabr, Çilîya pêş - sal 2011
Ji meha şûbatê sala 2003-a tê weşandin

Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî

Qiyməti, Hêjaye 40 qəpik

Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu

Anım — Xatirələr unudulmur

## ULU ÖNDƏR HƏR ZAMAN BİZİMLƏDİR



## Nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, ümummilli lider, Böyük Öndər Heydər Əliyev də ürəklərdə yaşayacaqdır!

## "BAKI-TBİLİSİ-CEYHAN" ƏSRİN DÜNYƏVİ SÜLH MÜQAVİLƏSİ



Xəyalım məni o illərə apardı, Ulu Öndərlə olan görüşüm yada düşdü..... Hər bir insan arzu edər ki, dahi, möhtərəm və mötəbər dövlət rəhbərləri ilə görüşsün. Belə fürsətlərdən biri də mənə qismət oldu. Və mənə dünya siyasətçilərinin öndərləri sırasında olan, Ümummilli lider, Böyük Öndər, müdrik insan, dövlət rəhbəri Heydər Əliyev cənabları ilə görüşmək nəsib oldu. Səh. 2



Səh. 6

## BARZANİDƏN AÇIQLAMA GƏLDİ



Səh. 12

## Nêçîran Barzanî: Têkdan û şewitandin diyardeyeke xerîbe



Səh. 6

Türk musiqisinin imperatoru İbrahim Tatlısəs bu gün ilk dəfə olaraq telefonla canlı yayıma qoşulub



Səh. 10

## İRƏVAN GECƏSİ KEÇİRİLİB



Səh. 4

## События в Захо: союз соседних стран и бывших “джашей”?



Səh. 6

## KÜRD DEPUTAT TBMM-DƏ ÖZÜNDƏN ÇIXDI

www.netewe.com

# "BAKI-TBİLİSİ-CEYHAN" ƏSRİN

## *Xatiğələğ unudulmuğ*

*XÖSUS BUĞAXILI*

Xəyalım məni o illərə apardı, Ulu Öndərlə olan görüşüm yada düşdü.....

Hər bir insan arzu edər ki, dahi, möhtərəm və mötəbər dövlət rəhbərləri ilə görüşsün. Belə fürsətlərdən biri də mənə qismət oldu. Və mənə dünya siyasətçilərinin öndərləri sırasında olan, Ümummilli lider, Böyük Öndər, müdrik insan, dövlət rəhbəri Heydər Əliyev cənabları ilə görüşmək nəsib oldu. O gün mənim həyatımın ən xoş günlərindən biri idi. O günü mən hər zaman xoş xatirələr kimi xatırlayıram, anıram və yeri düşəndə o görüş haqqında dostlara fəxrlə danışıram.

O ölməz insanla görüşdüyüm üçün özümü xoşbəxt sayıram.

1992-ci ilin dekabr ayı idi.Hər yerdə hərc-mərclik hökm sürürdü. Cəbhədə





itaətsizlik, özbaşınalıq yaranmış, günü-gündən torpaqlarımız əldən gedir, şəhidlərimizin sayı artırdı. Azərbaycan yas içində idi. Ölkəmizin hər yerində yasxanalar qurulmuşdu. Hər gün cəbhədən xoşagəlməz xəbərlər gəlirdi. Heç kim, heç kimin ərizəsini oxumaq istəmirdi. Demək olar ki, ölkə idarə olunmaz xaosa çevrilmişdi.

Yuxarıda qeyd etdiyim kimi, o dövrlərdə Azərbaycanda böyük hərcmərcliklər nəticəsində vətəndaş müharibəsinin başlamasına zəmin yaranmışdı, qardaş qırğını başlamışdı. Bunu görən xalq, xalqımızın dahi oğlu, əzəli və əbədi milli liderimiz Heydər Əliyev cənablarını Bakıya dəvət etdi

Heydər Əliyev yenidən hakimiyyətə gəldi və tariximizi, dinimizi, dilimizi, mənəviyyatımızı, parçalanmaq üzrə olan Vətənimizi xilas etdi.

O, Azərbaycan xalqını, Azərbaycan dövlətini məhv olmaqdan, dünya xəritəsindən silinməkdən birdəfəlik xilas etdi. Ölkəmizdə yaşayan milli azlıqlar Heydər Əliyevi, onun apardığı dünyəvi siyasətini böyük məhəbbətlə sevirlər və dəstəkləyirlər. Bu sevgi, bu məhəbbət xalqımızın ürəyində əbədi qalacaq. Çünki xalqımız və ölkəmiz üçün taleyüklü anlarda, düşmənlərimiz etnik azlıq amilindən istifadə etmək istədilər. Azərbaycan xalqının ayrılmaz hissəsi olan azsaylı xalqları fəlakət qarşısında idilər. Məhz vaxtında hakimiyyətə xalq tərəfindən gətirilən Heydər Əliyev cənabları onları bu fəlakətdən xilas etdi.

Üç saata qədər o müdrik insanla söhbət etdik. Olduqca sakit, səbr və təmkinlə bizi dinlədi. Müdrik, qayğılı, mavi okeanlar kimi sonsuz, dərin və mənalı gözləri ilə sanki insanların qəlbini, düşüncəsini oxuyurdu. Zaman keçdikcə, həqiqətən onun nə qədər uzaqgörən siyasətə malik olduğunu daha çox dərk etdim.

O, Azərbaycanımızın inkişafı və dirçəldilməsi üçün bir çox müqavilələr və kontraktlar bağlayıb, dəyərli görüşlər keçirib. Bu müqavilələrlə o, Azərbaycanımızı dünya dövlətlərinə tanıtdı, dünya dövlətlərini Azərbaycana bağladı və dünya səhmdarlarını Azərbaycana sərmayə qoymağa sövq etdi. Azərbaycanımız üçün çox dəyərli olan bu müqavilələrdən biri də "Bakı-Tbilisi-Ceyhan"əsrin müqaviləsidir. Bu müqavilənin imzalanmasını düşünəndə, insana yalnız iqtisadi mənfəət və neft ixracatı gəlir. Lakin bu məsələ barədə dərindən düşünəndə görürük ki, müdrik insan, xalqımızın ulu öndəri, Heydər Əliyev bu müqavilə ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Türkmənistan, Türkiyə, Avropanın bir sıra dövlətlərini, eləcə də ABŞ-nı və bu ölkələrlə əlaqəsi, bağlılığı olan ölkələri biri-birinə bağlayıb və sazişsiz, müqaviləsiz bu ölkələr arasında sanki sülh müqaviləsi imzalayıb. Bu ölkələr bundan belə biri-birinin müdafiəsinə qalxmağa, biri-birinin sözünü deməyə, arxa durmağa, yardım etməyə məcburdurlar. Çünki Ulu Öndərin uzaqgörən siyasəti sayəsində bu ölkələr özləri də bilmədən biri-birinə bağlandı və özü də elə güclü qüvvə ilə bağlandı ki, bu bağlılığı heç bir qüvvə poza bilməz.



Hörmətli prezidentimiz İlham Əliyev cənabları vaxtında "Bakı-Tbilisi-Ceyhan" neft kəmərinin inşasına başladı, onunla bərabər "Bakı-Qars" qaz kəmərinin bünövrəsini qoydu və həyata keçirdi. Azərbaycanımız üçün həyati əhəmiyyəti olan "Bakı-Axalkalaki-Qars" dəmir yolunun müqaviləsinə qol çəkdi və Gürcüstan, Türkiyə rəhbərləri ilə birlikdə, bu proyektin təməlini qoydu. Bu müqavilələr bir çox ölkələrə böyük həyati əhəmiyyət kəsb etsə də, hər zaman bizi və bizim kimi ölkələri "boyunduruq"da saxlayan Rusiya kimi hegemon ölkələrə sərfəli deyildi. Neçə illərdir ki, Qarabağ məsələsini meydana atan və həllinə əngəl olan Rusiya, günü-gündən qüdrətlənən, güclənən və Avropa birliyinə, NATO-ya yaxınlaşan Azərbaycanı və Gürcüstanı işğal etmək üçün yeni yollar axtardı və Qarabağ kimi, babaları Nikolayın dövründən yandırılan ocağın odu artırıldı. Gürcüstanın səbirsiz prezidenti Saakaşvilinin ucbatından ocağa benzin töküldü. Nəticədə, Rusiya Gürcüstanı işğal etmək istədi.Böyük arzularla yaşayan Rusiya, əsrlərdir həzm etdiyi Bakı neftinin Avropaya nəqlini sindirə bilmirdi. Ona görə də Gürcüstaı işğal etmək istədi ki, bəlkə Azərbaycan və Azərbaycan nefti onun ixtiyarına keçsin və Azərbaycan yenidən Rusiyanın boyunduruğuna girsin.

Lakin Rusiya hələ də başa dyşmək istəmir ki, ölməz Ümummilli lider Böyük Heydər Əliyev cənabları Azərbaycan Respublikası, Azərbaycan xalqı üçün elə bir iqtisadi-siyasi yol qoyub gedib ki, bundan belə istəsələr də Azərbaysanı Rusiyanın əsarəti altına sala bilməyəcəklər.

Necəki Rusiya Gürcüstanı işğal edə bilmədi və Gürcüstandan çıxarılarkən Osetiyanı və Abxaziyanı işğal edərək, müstəqil dövlət elan etdi. Özü də düşünmədən başını bəlaya saldı.Onda görəsən Rusiya yüz illərdir öz azadlıqları uğrunda mübarizə aparan çeçen xalqının və Çeçenistanın, Tatarıstanın, Başqırdstanın və digər muxtar vilayətlərin müstəqilliyini niyə vermir və niyə tanımır?

# DÜNYƏVİ SÜLH MÜQAVİLƏSİ




.Deməli, inamla deyə bilərik ki, ölməz Ümummilli liderimiz Böyük Heydər Əliyev dühası və Azərbaycan Respublikasının prezidenti, hörmətli İlham Əliyev zəkası sayəsində "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsi Gürcüstanı işğal olmaqdan xilas etdi.Və bu müqavilə sayəsində Qafqazda birdəfəlik sabitliyin təməl daşının qoyulması deməkdir və Gürcüstan məsələsi buna sübutdur. Bütün dünya ictimaiyyətinin gözü qarşısında Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsinə imza atmış ölkələr və bilavasitə bu proyektə bağlı olan şirkətlər qalxdı, Rusiyaya beynəlxalq qanunlar çərçivəsində təsir etdilər və işğalçı rus ordusunu Gürcüstandan çıxartdılar.







Və Gürcüstanın NATO-ya üzv olması məsələsi sürətləndirildi. Bu məsələləri görən ermənilər də bu həqiqəti görür və Azərbaycanla olan konfliktin həlli yollarını axtarır.Gülün İrəvana getməsi və arabuluculuq etməsi buna sübutdur. Artıq ermənilər də görür ki, Rusiya onları çıxılmaz bəlaya salıb və bu bəlanın həlli torpaqların qayıdışı və qonşuluqda sülh şəraitində yaşamaqdır. Ona görə də "Bakı-Tbilisi-Ceyhan" əsrin müqaviləsini, "Bakı-Tbilisi-Ceyhan" **əcrin dünyəvi cülh müqaviləci** adlandırsaq daha düzgün olar.

Bəli, danılmaz faktdır ki, bu gün minlərlə müxtəlif dünya ölkələrinin şirkətləri, səhmdarları Azərbaycanda bünövrə salıb çalışırlar. Azərbaycanımız günügündən qüdrətlənir, inkişaf edir, gözəl binalar ucaldılır, əvəzolunmaz yollar salınır, əfsanəvi körpülər qurulur, fabrik və zavodlar açılır. Ölkəmizin hansı guşəsinə gedirsən get gözəl parklar, istirahət zonaları, abad yollar görərsən. Respublikamızın bütün şəhər, qəsəbə və kəndlərində yeni, gözəl göz oxşayan binalar tikilir, ucqar rayonlarımıza qaz və rahat yollar çəkilir. Küçələrimizdə, həyətlərimizdə, əyalətlərimizdə müxtəlif çeşidli və markalı rahat maşınlar göz oxşayır. Xalqımızın maddi durumu günügündən yaxşılaşır, əlil və qocaların, imtiyazlı vətəndaşlarımızın maaşları artır. Xalqımız firəvan həyat sürməyə başlayıb. Biz inanırıq ki, xalqımız Ulu Öndərin xidmətlərini heç vaxt unutmayacaq, daim Heydər Əliyev siyasətini dəstəkləyəcək! Azərbaycan xalqı Böyük Heydər Əliyev ideyalarının həyata keçirilməsi naminə, ömrümüzün sonuna kimi çalışacağıq və onun ideyalarını yaşatmaq üçün, möhtərəm prezidentimiz, İlham Əliyev cənablarına yaxın dəstək olacağıq.

Hörmətli prezidentimiz İlham Əliyev cənablarının indiki xarici və daxili siyasəti nəticəsində Vətənimiz günügündən çiçəklənir, gözəlləşir. Biz inanırıq ki, Vətənimiz Azərbaysan dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarında olacaqdır və hörmətli prezidentimiz İlham Əliyev cənablarının bu siyasəti nəticəsində nəinki təkcə Azərbaycanda, eləcə də Qafqazda sülh və əmin-amanlıq bərpa olacaq və dünyanın qüdrətli ölkələri bizimlə dostluq və əməkdaşlıq etməyə çalışacaqlar.




Xalqımız Respublikamızda baş verən ictimai-siyasi hadisələri görür, dəyərləndirir və lazımınca qiymətləndirir.

Hamıya məlumdur ki, hörmətli prezidentimiz İlham Əliyev cənabları, istər ölkə daxilində, istərsə də dünya dövlətləri arasında, apardığı müdrik siyasəti nəticəsində dünya dövlətləri günügündən qüdrətlənən Azərbaysanımızla, onun rəhbəri hörmətli prezidentimiz İlham Əliyev cənavları ilə hesablaşırlar və ona hörmət və qayğı ilə yanaşırlar belə yanaşma xalqımız üçün, Respublikamız üçün fəxrdir.




Bəli, bu gün hörmətli Prezidentimiz İlham Əliyevin xoş sədaları respublikamızın hər yerindən gəlir.Əyalətlərimizin inkişafı üçün, inamla demək olar ki, hər gün bir neçə parklar, yeni məktəb binaları, xəstəxanalar, idman kompleksləri, fabrik və zavodlar,müxtəlif elm ocaqlarının açılışını edir. Bu işlər inkar edilməzdir. Xalqın gözü tərəzidir deyiblər. Biz inanırıq ki, xalqımız ölməz Ulu Öndər Böyük Heydər Əliyev cənablarının siyasətini həyata keçirən, hörmətli prezidentimiz İlham Əliyev cənablarına arxa olacaqlar.

Budur bu gün respublikamızın hər yerində, eləcə də dünyanın bir çox ölkələrində Ulu Öndər, Böyük Heydər Əliyevin 88-illik yubileyi keçirilir.

İnamla demək olar ki, prezidentimiz İlham Əliyev cənablarının indiki siyasəti nəticəsində Vətənimiz günü-gündən çiçəklənəcək, gözəlləşəcək və dünyanın inkişaf etmiş ölkələrinin ön sıralarıda özünə yer tutacaqdır.

*Hazırladı:*
***Tahir SÜLEYMAN***

### Sətri Xəbərlər

*Prezident Barzani Livandan gələn bir sıra diplomatla görüşlər keçirib.

*Keçən həftə Zaxo şəhərində baş vermiş ixtişaşlarda günahlandırılan "Kürdüstan İslam Birliyi" partiyasının bir çox üzvləri, bölgə nümayəndələri həbs olunub. Jurnalistlər qeyd edir ki, bu partiya Səudiyyə Ərəbistanından maliyyələşir və Kürdüstanda qeyri-sabitliyin bərqərar olmasını öz qarşısına qoyub.

*Diyarbəkirdə keçirilən dinc mitinq zamanı polis aksiya iştirakçılarına atəş açıb. Bir gənc həyatını itirib. Onlarla insan yaralanıb.

*Kürdüstan Muxtariyyəti geniş tərkibli nümayəndələri ABŞ-a səfər edib.

*İraq parlamentinin deputatı, milliyətcə kürd olan Mahmud Osman bildirmişdi ki, bir sıra dövlət Kürdüstana qarşı gizli mübarizəyə başlayıblar. Onlar satqın kürdlərdən istifadə edərək, öz çirkin məqsədlərinə çatmaq istəyirlər. Əvvəllər Səddam Hüseyn ilə birləşən, və dinc kürdlərə divan tutan həmin "kürdlər" indi də xarici dövlətlərə xidmət edirlər.

*Bir çox siyasi şərhçilər bildirirlər ki, Bəşər Əsəd rejimi dağılsa, qonşu ölkələrə milyonlarla qaçqın sığınacaq üçün qaçacaq. Bu isə qonşu dövlətlərdə - Türkiyə, İraq, Livan sabitliyini tamam pozacaq.

*Kürdüstanın baş naziri Bəhram Saleh Kürdüstanın xristian icmasının rəhbərləri ilə görüş keçirmişdir. Qeyd olunmuşdur ki, Kürdüstanda heç bir zaman milli və dini irqçilik olmayıb, əksinə, Kürdüstanda yaşayan bütün dinlərin və millətlərin nümayəndələri dahi rəhbər Molla Mustafa Barzani ətrafında birləşərək, faşist Səddam Hüseyn rejiminə qarşı çiyin-çiyinə mübarizə aparmışlar.

*Kürdüstan Demokrat Partiyası: Kürdüstanda sabitliyin pozulmasına doğru atılan bütün addımları dayandırın!

*ABŞ siyasətçiləri bildirilər ki, ölkənin ordusu İraqdan çıxarılan zaman, çox güman ki, sünnü-şiə müharibəsi başlayacaq. Belə olan zaman, kürdlər konfliktə qarışmayacaq və müstəqilliklərini elan edəcəklər. Qeyd edək ki, İraq əhalisinin 60% şiə-ərəblər, 20% - sünnü-ərəblər, 17% kürdlər, 3% digər millətlər təşkil edir. Buna baxmayaraq, sünnü-ərəblər hakimiyyəti zorla ələ keçirmək istəyirlər, Türkiyə və Səudiyyə Ərəbistana arxalanırlar. Bu isə təbii olaraq çoxluğun (şiələrin) narazılığına səbəb olur.

*İraqın keçmiş XİN-nin rəhbərini 2012-ci ildə edam edə bilərlər. O, insaniyyətə qarşı törədilən (soyqırım) cinayətlərdə günahlandırılır.

*Dekabrın 8-də tanınmış kürd publisisti, jurnalisti, uzun illər "Riya Təzə" qəzetinin baş rekaktoru işləmiş Titale Afo həyatı ilə vidalaşmışdır.

*Van şəhərində, 15 yaşlı iki uşağın hər birinə 12 il həbs cəzası verilmişdir. Onların günahı "polisi təhqir etmək" və "terror təşkilatını tərifləmək"olduğu bildirilmişdi.

*Avropa Parlamentində kürdlərlə bağlı konfrans keçirilmişdir. "Avropa Birliyi, Türkiyə və Kürdlər" adlandırılan konfransda Avropadan, Türkiyədən, eləcədə dünyanın digər ölkələrindən nümayəndələr iştirak etmişlər.

*Kərkük şəhərində girov götürülən alim 800 min dollar əvəzinə buraxılıb. Qeyd edək ki, Kərkük məsələsi həll olunmadıqca, terrorçuların qarşısını almaq çətin olacaq.

*Suriya Kürdüstanında fəaliyyət göstərən Birlik Partiyasının rəhbəri İsmayl Xama Suriyada kürdlərin vəziyyəti haqqında "rudav" xəbər portalına geniş məlumat vermişdi.

*Hal-hazırda Suriyada iki kürd cəbhəsi var, radikal cəbhə - Məsud Barzani ilə sıx əməkdaşlıq edən, və liberal cəbhə - PKK ilə əməkdaşlıq edənlər. Birincilərin məqsədi, Bəşər Əsədi istənilən yol ilə devirmək, və Suriya muxalifəti ilə birləşmək. Lakin liberal cəbhə daha ehtiyyatlı davranır və Bəşər Əsəd ilə bəzi əməkdaşlıqa gedir. Onlar hesab edir ki, fərqi yoxdur Suriyada hansı hakimiyyət olsun, kürdlərin vəziyyəti yaxşı olmayacaq. Gərək kürdlər ələ düşən imkanlardan istifadə edə bilsin.

*Kərkük şəhərində şiə ziyarətçiləri atəşə tutulub, bir nəfər həlak olub, altı nəfər yaralanıb. Kərkükdə azlıqda qalan sünnü-ərəblər vəziyyətlərindən narazı qalaraq, silahlanıb digər xalqlara qarşı terror aktları törədirlər.

*Türkiyə Xarici İşlər naziri Davutoğlu: Suriya PKK-ya kömək etməyə curət etməz.

# Mustafa Kamalın qanlı əməlləri

## *Başımı qırxdılar, qara vaqona mindirdilər...*

Samsun - Mədinə Çolaq, 1937-38 Dersim soyqırımından sağ xilas olan, övladlığa verilən itkin qızlardan biri…

Dövlətin mərhəmətsiz üzüylə tanış olduğunda hələ 10 yaşında bir qız uşağı idi. Atası Seyit Ali Güngör, böyük qardaşı Kalman, bacısı Bese və 3 yaşındakı Hasan gözləri qarşısında qətlə yetirildi.

Soyqırımdan xilas olan yüzlərlə uşaq kimi, əvvəl saçları qırxıldı… Sonra qara vaqona mindirilərək heç tanımadığı torpaqlara sürgün edildi.

Hər kəs ailəsindən bir neçə adamı qurtarmanın sevinci içindəykən, o, bu yolda tək başınaydı... Onun acı hekayəsi burada başlayırdı...

Samsunda Çərkəz bir ailə tərəfindən övladlığa götürüldü. Bu gün 87 yaşında olan Mədinə, özüylə görüşməyə getdiyimdə mənə ilk sualı 'Kurmanci bilirsənmi'? oldu.

Və sonra, "Qızım çox insan, çox jurnalistlər gəldi izahat aldı amma nə dəyişdiyi ki?" deyə soruşur. Qızı Aylanın tez-tez pərdələri çəkməsiylə birdən diksinir və mənə baxır: "Köhnədən çox ürəkliydim bilirsənmi? İndi bu səslər belə məni ürküdür " deyir...

Sözü indi Dersimin itkin qızı Nazmiyeli Mədinəyə veririk:

**ƏSGƏR ATƏŞ AÇA-AÇA GƏLDİ**

"1937 də qırğın hələ başlamamış qışın oğlan çağında anam sətəlcəmdən öldü. Biz dörd uşaq atamla qaldıq. Böyük qardaşım Kalmağın, bacım, Bese və mənim üçün çətin günlər başlamışdı.

Böyük qardaşım və atam çalışırdılar… Əslində 10 yaşında olmağıma baxmayaraq bütün evin yükü üzərimə düşmüşdü. Evin böyük qızı mən idim, qardaşlarımla maraqlanmağa çalışırdım.

Hər şey yaz aylarında başladı. Atam bir səhər heyvanları otarmağa getdi, saatlar keçdi gəlmədi. Çox qorxmuşdum. Evin önündə gözləyirdik, böyük qardaşım atamı axtarmağa gedəcəyini söylədiyi an, birdən arxadan silah səsləri gəldi. Bütün kənd camaatı çaxnaşma içində çölə qaçdı. Əllərində tüfənglər, əsgərlər kəndimizə doğru güllə sıxa sıxa gəlirdilər. Hər kəs canını qurtarmaq üçün qaçmağa başladı.

O, qorxuyla, meşəyə doğru qaçmağa başladım. Dayananda kənddən xeyli uzaqlaşdığımın fərqinə vardım. Gecə meşədə tək başıma qaldım.

**KƏNDƏ GƏLDİK, EVLƏR YANMIŞDI**

Gecə yarısı güllə səsləri yenidən gəlməyə başladı. Təkrar qaçmağa başladım. Bacadan tüstü çıxan bir evə getdim. Qapıda qadın məni görər görməz, 'sən niyə bura gəldin, bizi də aparacaqlar. Sıra bizə gəldi'-dedi. Qadın qazanları torpağa basdırırdı …

Mənə yarım çörək və bir tas qatıq verdi. İrəlidəki şam ağacını göstərərək, 'balam burada dayanma get şamlıqda gizlən' dedi. Şam ağaclarının içinə soxularaq çörəyimi və qatığımı yeddim.

Bir zaman sonra bizim kənddəki gənclər önümdən qaçaraq keçdiyində çox sevindim. Tanıdığım yüzlərlə adamla qarşılaşmışdım. Qaçaraq yanlarına getdim, "Hara gedirsiniz məni də aparın" dedim. Aralarından biri əlimdən tutaraq özləri ilə apardı. Kəndə gəldiyimizdə kimsə qalmamışdı, evlərimiz yandırılmışdı…

**MENO MENO YAŞAYIRSAN**

Sonra bizim kəndin yaxınlarında olan anamın kəndinə getməyə qərar verdim. Ancaq oraya çatdığımda da kimsə qalmamışdı. Bəlkə bir tanışa rast gələrəm deyə çölə doğru yol aldım. Bir az getdikdən sonra bir izdihamla qarşı-qarşıya gəldim. Qaça qaça yanlarına gəldiyimdə xalam Arzunu gördüm.

Çox sevindim, məni görər görməz "Meno, meno yaşayırsan balam" Məni qucaqladı. Kənddə hər kəs mənə Meno deyərdi…



Qardaşlarımın əsgərlər tərəfindən aparıldığını söylədim. Hara gediləcəyimizi müzakirə edirdik. Birdən dağın başında əsgərlər göründü. Hamımız dağın aşağısına doğru qaçmağa başladıq. Orada xalamı itirdim. Ürəyim az qala dayanırdı…

Dağdan enəndə bir dərəyə rast gəldim. Dərənin kənarında oyuq bir daşın arxasına gizləndim. Dizlərimə qədər islanmışdım. Başımı qaldırdığımda dağdan aşağı doğru gələn əsgərlərdən birinin məni görməsiylə atəş açması bir oldu.

Əsgər yanıma gələrək qışqırmağa başladı, məni oradan çıxardıb sürüyə sürüyə qadınların, uşaqların toplaşdığı yerə gətirdilər. Ailəmi tapmaq ümidiylə kütlənin içində dolanıb gəzirdim. Amma tapa bilmədim...

**MƏNİM KİMİ BİR ÇOX UŞAQ VARDI**

Sonra bizi Elazığa apardılar. Mənim kimi bir çox uşaq vardı. Qadın, uşaq, hamımızı yığaraq, saçlarımızı dibdən qırxdılar. Hamama saldılar və sonra da qatara mindirdilər…

Uzun bir səfər oldu. Hara getdiyimizi bilmirdik. Qatarın içi çox sıxlıq, bir cəhənnəm kimi idi. Bizi bir yerdə düşürtdülər. Daha sonra Samsun Terme mahalı olduğunu öyrənəcəyəm bir yerə gəlmişdik.

Hamımızı bir tövlənin içinə doldurdular. Davud Öngen adlı Əhali Müdiri tək-tək hamımızın adını soruşub qeyd edirdi. Sıra mənə gəldiyində Türkcə tək bir söz bilmədiyim üçün soruşduğu heç bir suala cavab verə bilmədim. Mənə elə hüznlü bir gözlərlə baxmışdı ki... Məni stolda oturdurdu, simit verdi. Əl hərəkətləriylə gedib dərhal dönəcəyini söylədi.

**YENİ YUVAM ÖNGEN AİLƏSİ**

Daha sonra gedib həyat yoldaşı Naciyəyə 'Gətirilən Kürdlər arasında kiçik bir qız var. Heç kimi yox elə gözəl, elə qəribə ki onu bu halda buraxa bilmərik' demiş. Baş məmurla məsləhətləşmiş, sonra məni əlimdən tutaraq evə apardı. 4 uşağı vardı…

Həyat yoldaşı Naciyə məni görər görməz dərhal sahib çıxdı. Çərkəz bir ailə idi. Məkanları cənnət olsun mənə çox yaxşı davrandılar. Naciyə bacı məni dərhal götürüb yuyundurdu. Mənə Fatma deyə səslənirdi. Əvvəlcə söylədiklərindən heç bir şey anlamırdım.

Naciyə bacı mənə süpürgəni gətir dediyində, mən ona kürək gətirərdim. Sonra yavaş yavaş Türkcə öyrənməyə başladım. Ad kağızımı Dersimdən gətirdilər o zaman mənə təkrar Mədinə deməyə başladılar. Onsuz da Fatma adına da alışa bilməmişdim.

Naciyə bacı çölə çıxdığında otağıma bağlanıb atam və qardaşlarım üçün ağlayırdım. Tək bir gün olmadı ki, onları xatırlamayım…

Mən məktəblə gedə bilmədim. Amma heç soruşmadım səbəbini. Ögeylik içində yaşadım həmeşə. Oraya aid olmadığımı hiss edirdim. Ancaq öz uşaqlarım olduğunda qardaşlarıma verəcəyim sevgimi onlara verdim.

Gənc qızlığım da çətin keçdi. Mənə qucaq açan ailə yaxşı bir ailə idi amma mənim ailəm deyildi və mənim çəkdiyim ağrını heç bir zaman o qədər dərindən hiss edə bilməzdilər.

**TORPAĞI ÖPDÜM**

19 yaşımda vastəci üsuluyla evləndim. Həyat yoldaşıma hər şeyi izah etdim. Mənə həmişə dəstək oldu. Kasıbdıq. İlk uşağım dünyaya gəldiyində çox xoşbəxt oldum. Böyük qardaşım Kalmağına bənzəyirdi, onları həm uşaqlarım həm qardaşlarım kimi sevdim.

Burada uzun bir müddət Dersimli olduğumu söyləyə bilmədim. Yaşadığım yerdə hələdə məni Ərzurumlu sanarlar. Söyləyə bilmədim, uşaqlarıma pislik edərlə deyə susdum.

Uşaqlarıma illər sonra Dersimli olduqlarını söylədim. Onlar da bilmirdilər. Halbuki Dersimli olmaqla qürur duyuram…

Dersimə illər sonra təkrar ayaq basdığımda torpağı öpdüm. Hər şey gözlərəmin qarşısından keçdi. Bu duyğu həm hüzn həm hirs həm qorxu həm də sevinc idi. Qohumlarım məni böyük həsrətlə qarşıladı.

**NƏ DEYİM BEL Ə YAŞAMAĞI**

İndi övladlarımız da bizimlə eyni təzyiqləri görür. Yenə orada eyni şeylər yaşanılır. Mən hələ atamın, qardaşlarımın məzarının yerini belə bilmirəm. 87 ildir bu ağrıyla yaşayıram. Nə deyim belə yaşamağa…

Dersimə dörd dəfə getdim, artıq gedə bilməz hala gəldim. Qızımın daha əvvəl apardığı araşdırmalardan atamın, böyük qardaşların və bacımın qırğın vaxtdı Mazgirtdə öldürüldüyünü öyrəndim. amma onları ömürümün hər saniyəsində ürəyimdə daşıdım və ölənə qədər bu belə olacaq…"

*www.firatnews.com,*
*Zeynəb Kuray,*
*Azərbaycan dilinə tərcümə etdi:*
*Kurdo Kurdistani*

# Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri



Cəmil HƏSƏNLİ
*Tarix elmləri doktoru, professor*

***"Media forum" saytı tarixçi alim Cəmil Həsənlinin "Azərbaycanın sovetləşməsi və Qarabağın qara günləri (1920-1923)" araşdırmasını oxuculara təqdim edir.***

**Əvvəli ötən sayımızda**

Teleqramlarının birində yoldaş Çiçerin bəyan edir ki, mən onu bu məsələlərdə ittiham edirəm. Lakin əgər söhbət etirazdan gedirsə, mən gərək onlarla etiraz bəyan edəm. Bu anlaşılmazlıqların olmaması üçün lap əvvəldən bu satqın Ermənistana münasibətdə möhkəm siyasət yeritmək lazım idi".

* * *

Moskvada və İrəvanda aparılan danışıqların nəticəsi kimi, 1920-ci ilin avqust ayının 10-da tərəflər arasında altı bənddən ibarət müqavilə bağlanmışdı ki, onun dörd bəndi bilavasitə Azərbaycanla süni şəkildə yaradılmış ərazi mübahisələrinə aid idi. Müqavilənin giriş hissəsində Sovet Rusiyası Ermənistan Respublikasının istiqlaliyyətini və tam müstəqilliyini tanıyırdı.

Birinci maddəyə görə, RSFSR ordusu ilə Ermənistan Respublikası ordusu arasında hərbi əməliyyatlar 1920-ci ilin avqust ayının 10-u saat 12-dən etibarən başa çatmış hesab edilirdi.

Müqavilənin ikinci maddəsində qeyd olunurdu ki, bu sazişlə müəyyən edilmiş Ermənistan qoşunlarının yerləşdiyi zolaqlar istisna olmaqla mübahisəli vilayətlər Qarabağ, Zəngəzur qəzaları və Naxçıvan diyarı Sovet Rusiyasının qoşunları tərəfindən tutulur.

Müqavilənin üçüncü bəndinə görə, sovet ordusunun tutduğu mübahisəli ərazilər bu ərazilərin hüquqi baxımdan Ermənistan Respublikasına və Azərbaycan SSR-ə məxsusluğunu həll etmir. Bu ərazilərin müvəqqəti tutulması RSFSR-lə Ermənistan arasında yaxın gələcəkdə imzalanacaq sülh müqaviləsi ilə müəyyən ediləcək Azərbaycanla Ermənistan arasında ərazi mübahisələrinin dinc yolla həllinə xidmət etməlidir.

Müqavilənin dördüncü bəndinə görə, hərbi əməliyyatların dayandırılması ilə müqavilədə olan tərəflər həm mübahisəli ərazilərdə, həm də sərhədyanı ərazilərdə hərbi qüvvələrin toplanmasını dayandırırdılar.

Beşinci maddəyə görə, qarşıda RSFSR-lə Ermənistan Respublikası arasında sülh müqaviləsi bağlanana qədər dəmir yolunun Şaxtaxtı-Culfa hissəsinin istifadəsi Ermənistan Dəmiryol İdarəsinə verilirdi. Lakin oradan hərbi məqsədlərlə istifadə edilə bilməzdi.

Altıncı maddəyə görə, RSFSR təminat verirdi ki, sovet ordusunun tutduğu xəttin arxasında qalan Ermənistan Respublikasının bütün hərbi hissələri maneəsiz olaraq Ermənistana buraxılacaqlar. Müqaviləni RSFSR tərəfindən səlahiyyətli nümayəndə B.Leqran, Ermənistan tərəfindən isə A.Camalyan və A.Babalyan imzalamışdılar.

Avqustun 13-də G.Çiçerin Rusiya-Ermənistan müqaviləsi haqqında RK(b)P MK Siyasi Bürosuna məlumat verdi və müqavilə bəyənildi. Rusiya ilə Ermənistan arasında müqavilənin belə tələm-tələsik bağlanması həmin tarixdə Türkiyə ilə Antanta arasında imzalanmış Sevr müqaviləsi ilə bağlı idi. Sevr müqaviləsi ermənilərə böyük imtiyazlar vəd etdiyindən rus-sovet diplomatiyası ehtiyat edirdi ki, Ermənistan bütövlükdə Antantanın təsirinə düşə bilər. Çiçerini Ermənistanla müqavilənin bağlanmasını sürətləndirməyə vadar edən başlıca xarici amil məhz Sevr müqaviləsi idi. Hətta Rusiya ilə Ermənistan arasında imzalanmış 10 avqust müqaviləsi diplomatik bir sənəd olaraq hələ imzaya hazır olmasa da, Moskvanın təkidi ilə Ermənistandakı sovet nümayəndəsi Leqran onu imzalamalı və Sovet Rusiyasının mübahisə obyektinə çevirdiyi Azərbaycan ərazilərini Ermənistana vəd etməli olmuşdu.

Ermənistanın rəhbər dairələri Moskvaya hazırladıqları məruzələrdə tez-tez xatırladırdılar ki, Gürcüstan və Azərbaycanla müqayisədə guya İngiltərə Ermənistana böyük əhəmiyyət verir. Bunu ermənilər onunla əsaslandırırdılar ki, guya bir tərəfdən Ermənistan öz coğrafi vəziyyətinə görə Orta Şərq ölkələrində Britaniya hökmranlığını yaymaq üçün quru körpü rolunu oynayır, digər tərəfdən isə "Ermənistan müsəlman və türk dünyası üçün hiyləgərcəsinə istifadə oluna bilən pazdır".

Sovet siyasətinə gəldikdə isə sənəddə əsaslandırılırdı ki, əgər Antanta və onun əlaltıları "Osmanlı zülmü altında olan Türkiyənin məzlum xalqlarının azadlığı" şüarından istifadə fikrinə düşsə, Kiçik Asiyada uğur qazana bilər, " həmin halda Ermənistan bu azadlıq təşəb-

həmin halda Ermənistan bu azadlıq təşəb-

büsünü öz əlinə almaq üçün lazımdır ki, indiki Türkiyənin ərazisində bufer dövlət yaratsın. Bu dövlət əgər təmiz sovet hökuməti olmayacaqsa da, hər halda Sovet Rusiyasının təsir orbitinə daxil olan bir dövlət ola bilər".

* * *

Əslində, Rusiya-Ermənistan müqaviləsində Azərbaycanın mübahisəsiz sayılan ərazilərinin mübahisə obyektinə çevrilməsinə sovetləşmənin ilk günlərindən hazırlıq gedirdi. Bunu hiss edən Azərbaycana ezam olunmuş Serqo Orconikidze 1920-ci ilin iyun ayının 19-da Vladimir Lenin və Georgi Çiçerinə vurduğu teleqramda məlumat verirdi ki, Qarabağ və Zəngəzurda sovet hakimiyyəti elan edilib və adı çəkilən hər iki ərazi özünü Azərbaycanın bir hissəsi hesab edir. O xəbərdarlıq edirdi ki, "Azərbaycan Qarabağsız və Zəngəzursuz heç bir halda keçinə bilməz. Ümumiyyətlə, mənim fikrimcə, Azərbaycan nümayəndəsini Moskvaya çağırıb onunla birlikdə Azərbaycan və Ermənistana aid bütün məsələləri həll etmək lazımdır. Bunu Ermənistanla müqavilə bağlanana qədər etmək lazımdır. Ermənilərlə Zaqatalaya bənzər hadisələrin təkrar olunması bizi burada tamamilə batırar".

Sovet Rusiyası ilə Ermənistan arasında Azərbaycandan xəbərsiz imzalanmış 10 avqust müqaviləsi mərkəzi bolşevik hökumətinin, xüsusilə Sovet Rusiyası XXİK-nin Azərbaycanı gözdən salmaq siyasətinin bilavasitə nəticəsi idi. Hətta bu müqavilədən sonra Ermənistan ərazi və sərhəd məsələlərinə aid hər hansı məsələni Azərbaycanla müzakirə etməyə ehtiyac belə duymurdu. Azərbaycan xarici işlər komissarı M.D.Hüseynovun mübahisəli məsələləri müzakirə etmək üçün konfrans çağırmaq təklifinə cavab olaraq avqust ayının 23-də Ermənistanın xarici işlər naziri Ohancanyan bildirirdi ki, "Ermənistan hökuməti ilə RSFSR-in nümayəndəsi Leqran arasında imzalanmış 10 avqust 1920-ci il tarixli ilkin müqaviləyə uyğun olaraq Ermənistanla Azərbaycan arasında ərazi mübahisələri yaxın gələcəkdə Ermənistanla Rusiya arasında bağlanacaq sülh müqaviləsi əsasında həll edilməlidir".

Azərbaycan tərəfinin Qazaxda keçirilməsi nəzərdə tutulan bu konfransa Azərbaycanı təmsil edəcək iki erməni (İ.Dovlatov və A.Mikoyan) və bir gürcüdən (Lominadze) ibarət nümayəndə heyəti təyin etsə də, ermənilər bu konfransda iştirakdan imtina etdilər.

Ermənistanın belə arxayın mövqeyi onunla bağlı idi ki, 1920-ci ilin may ayında onlar Sovet Rusiyasından xahiş etmişdilər ki, Azərbaycanla olan mübahisəli məsələlərin həllində vasitəçi olsunlar, lakin Karaxan Sovet Rusiyasının və

olsunlar, lakin Karaxan Sovet Rusiyasının və




Azərbaycan hökumətinin adından cavab vermişdi ki, "qarşılıqlı milli qırğınlardan qaçmaq üçün mübahisəli ərazi məsələləri həll edilənə qədər həmin mübahisəli yerlər rus Qırmızı Ordusu tərəfindən tutulacaq. Bu barədə artıq rus hərbi komandanlığına əmr verilib".

İki ölkə arasındakı ərazi mübahisələrində Ermənistana bəraət qazandırmaq üçün Mərkəzdə bəzi rəhbər işçilər yalan danışmaqdan, təxribat uydurmaqdan belə çəkinmirdilər. Hələ müqavilə imzalanmazdan xeyli əvvəl xarici işlər komissarı Çiçerinin Leninin adına hazırladığı xatırlatmada qeyd olunurdu ki, Azərbaycan hökuməti Qarabağa, Zəngəzura, Naxçıvanla birlikdə Şərur-Dərələyəz qəzasına iddiasını bəyan edib: "Bu yerlərin böyük hissəsi faktiki olaraq Ermənistan Respublikasının əlindədir. Azərbaycan bu əraziləri ələ keçirmək üçün öz hərbi hissələrini göndərməlidir, yəni həmin əsgərləri ki, onlar sovet hakimiyyətinə qarşı dayanırlar. Tatar (azərbaycanlı - C.H.) hissələrini ermənilərə qarşı göndərmək tamamilə yolverilməzdir və bu, böyük cinayət olardı.

Qeyd edilən vilayətlərə türklərin hücum etdiyi indiki vaxtda bu xüsusilə yolverilməzdir. Əgər bu hissələr ora göndərilsə, türklər həmin dəqiqə əllərini Azərbaycanın müsəlman hissələrinə uzadacaqlar. Ümumiyyətlə, bu hissələrin məsələsi kifayət qədər mürəkkəb məsələdir. Onlar artıq üsyan qaldırır və türklərin yaxınlaşması bu meyli daha da gücləndirəcək. Ən yaxşısı onları İrana göndərmək olardı, lakin mən kifayət qədər məlumatlı deyiləm ki, indiki anda bunun mümkün olduğunu müəyyənləşdirəm. Bütün hallarda Azərbaycan əsgərlərini Azərbaycanın iddia etmək xəyalına düşdüyü, ermənilərin əlində olan vilayətləri almağa göndərməkdən söhbət belə gedə bilməz".

Özünün dediyi kimi, Azərbaycanın daxili siyasəti haqqında az məlumatlı olan Çiçerin Bakının tələblərinin təmin olunmasının çox dəhşətli bir mənzərəsini cızırdı. O yazırdı: "Digər yol bizim hərbi hissələr tərəfindən tutulmuş, qeyd edilən yerlərin Azərbaycana hədiyyə edilməsidir. Nərimanov bilavasitə bu kombinasiyanı nəzərdə tutur. Daxili siyasəti müsəlman kütlələrinin əhəmiyyətli hissəsi ilə kəskin ixtilafa gətirib çıxarmış Bakının sovet hökuməti mübahisəli elan olunmuş yerləri kompensasiya kimi Azərbaycan üçün əldə etmək yolu ilə millətçi əhval-ruhiyyəli ünsürləri öz tərəfinə çəkmək istəyir. Bu kombinasiyanın sovet hissələrinin əli ilə edilməsi tamamilə yolverilməzdir. Bizim rolumuz tamamilə obyektiv və müstəsna dərəcədə qərəzsiz olmalıdır. Əgər biz bir millətin əleyhinə digər millətə söykənsək, bu, bizim bütün Şərq siyasətimiz üçün faciəli səhvə gətirib çıxarar. Hər hansı əraziləri ermənilərdən alıb və bizim əlimizlə onu Azərbaycana vermək bizim Şərqdə bütün siyasətimizə tamamilə yanlış rəng verərdi".

Vəziyyəti süni şəkildə mürəkkəbləşdirən Çiçerin ondan çıxış yolunu Rusiya hərbi hissələri tərəfindən tutulmuş və yalnız sovetləşmədən sonra mübahisəli elan olunmuş ərazilərin Rusiya işğal rejiminə tabe edilməsi haqqında qərar qəbul edilməsində görürdü. Onun fikrincə, müvafiq əlverişli siyasi şərait yaranana qədər bu ərazilər nə Azərbaycana, nə də Ermənistana verilməli idi.

Çiçerin məsələnin belə qoyuluşuna Ermənistanla müqavilə bağlamaq aləti kimi baxırdı. O yazırdı: "Yalnız hərbi status-kvo zəminində bizim Zaqafqaziyada sülh siyasətimizin həyata keçirilməsinin zəruriliyi naminə Ermənistanla müqaviləyə ümid bəsləmək olar. Bununla bağlı hamı deyir ki, biz indi oralarda hazırda əlimizdə olan ərazilərdən başqa yeni ərazilər tutmaqdan imtina etməliyik. Ermənistan Respublikası ilə biz nə qədər mümkünsə tez müqavilə bağlamağa cəhd göstərməliyik".

* * *

Georgi Çiçerin öz təkliflərinin bir hissəsini rəsmiləşdirə bildi və Qafqaz cəbhəsi Hərbi İnqilab Şurasına göndərdiyi təlimatda o, Mərkəzi Komitə adından bildirdi ki, Ermənistanla Azərbaycan arasında mübahisəli sayılan ərazilərə heç bir Azərbaycan və ya erməni hakimiyyət orqanları buraxıla bilməz. Mübahisəli elan olunan ərazilər Azərbaycan əraziləri olduğundan və Azərbaycan hakimiyyət orqanlarının nəzarətində olduğundan bu qərar Azərbaycanın suveren hüquqlarına və ərazi bütövlüyünə kobud şəkildə müdaxilə idi.

**Ardı var**

# KÜRD DEPUTAT TBMM-DƏ ÖZÜNDƏN ÇIXDI





BDP millət vəkillərinin rəhbəri Hasip Kaplan, Nurəddin Caniklinin sözlərinə əsəbiləşərək, çıxış etdiyi kürsüdəki stəkanı qıraraq ona tərəf tullayıb

Türkiyə prezidenti Abdullah Gülün veto etdiyi "Şikə qanunu" yenidən müzakirə edən Türkiyə Böyük Millət Məclisində söz dueli davalaşa çevrilib.

Qanunun 1-ci maddəsinin müzakirəsi zamanı çıxış edən Canikli bildirib ki, mənim adım "şikə istintaqına" aid iddianamədə olmayıb. BDP millət vəkili isə Caniklinin adının "şikə istintaqına" aid iddianamədə olduğunu bildirib.

AK Partiya millət vəkili Canikli isə bildirib ki, "Şərəfli insan belə iddiada adı olarsa, bunu açıqlayar. Hüquq müdafiəçisi olduğunuzu söyləyirsiniz. Belə hüquq müdafiəçisi olar? Bu cür ancaq hüquq terroristi olar. Bu məntiqlə, insan millət vəkili olar? Utanın, buradan üzr istəyin. Belə tərbiyəsizlik etməyin.

Kürsüyə çıxan BDP millət vəkili isə Canikliyə cavab olaraq bildirib ki, ağzından çıxanı qulağın eşitsin. Elə bundan sonra da söz dueli qızışıb. Kaplan stəkanı qıraraq AK partiya millət vəkili Canikliyə tərəf atıb. Parlament 5 dəqiqəlik fasilə verdikdən sonra müzakirələr yenidən davam edib.

*xazar.tv*



## BƏRZANİDƏN AÇIQLAMA GƏLDİ

Quzey İraqdakı müxtəlif şəhərlərdə olan masaj salonlarında fahişələrin olduğunu və belə yerlərdə spirtli içkinin satıldığı ortaya çıxdıqdan sonra kürd administrasiyasının başçısı Məsud Bərzani, böyük təhlükə altında olduqlarını bildirib.

PİA.AZ "haber1.com" saytına istinadən xəbər verir ki, Bərzaninin lideri olduğu İraq Kürdüstan Demokrat Partiyasını dəstəkləyənlərə mesaj göndərib. Bərzani mesajında 'Kürdüstan Bölgəsi'olaraq xarakterizə etdiyi Şimali İraqın böyük bir təhlükə altında olduğunu, 'düşmənlərin' planlarında qarşısını almaq üçün birləşməyin labüdlüyünü dilə gətirib.

## Türk qırıcıları PKK düşərgələrini bombalayıb



Dekabrın 8-də Türkiyə qırıcı təyyarələri PKK terror təşkilatının İraqın şimalındakı Zap bölgəsində yerləşən düşərgələrini bombalayıb.

Simsar.az-ın "Milliyət" qəzetinə istinadən verdiyi məlumata görə, bu barədə İraq prezidenti Cəlal Tələbaninin lideri olduğu İraq Kürdüstan Yurdsevərlər Birliyinin rəsmi saytında məlumat yerləşdirilib.

İraq Kürdüstan Yurdsevərlər Birliyi Türkiyə ordusunun sərhədə, Şəmdinli və Çukurca rayonlarına qüvvə cəmləşdirdiyini də qeyd edib. Bombalanmanın o bölgələrə yaxın qəsəbələrdən də göründüyü və qorxuya səbəb olduğu bildirilir.

## Türk musiqisinin imperatoru İbrahim Tatlısəs bu gün ilk dəfə olaraq telefonla canlı yayıma qoşulub



Türkiyə KİV-nin yaydığı məlumata görə, "Show TV" kanalında Sibel Canın qonaq olduğu "Saba Tümer ile bu gün" proqramına telefon açan İbrahim Tatlısəs "mən Allahın möcüzəsiyəm, Allah məni qorudu", deyə bildirib.

Sənətkar proqramda canlı olaraq türk və kürd dilində mahnı da ifa edib. O, "Möcüzə" adlı yeni albom buraxacağını açıqlayıb. Xatırladaq ki, bu il martın 13-dən 14-nə keçən gecə İbrahim Tatlısəs İstanbulda silahlı hücuma məruz qalıb. O, avtomat silahdan açılan atəş nəticəsində başından yaralanıb. Xəstəxanaya çatdırılan sənətçinin həyatını xilas etmək mümkün olub. Sonradan onun üzərində cərrahiyyə əməliyyatı aparılıb. Hazırda sənətçi reabilitasiya kursu keçir.

## TÜRK HAKİMİYYƏTLƏRİ ÖCALANA NƏ VƏ NİYƏ HƏDİYYƏ ETDİ?!

Türk araşdırmaçı yazar Mehmet Eli Güler yeni yazdığı kitabında, 1986-2011-ci illər arasında hökumətlərin Abdullah Öcalanla görüşlərini araşdırıb

FaktXeber.com-un Türkiyə mediasına istinadən verdiyi məlumata görə, "Hökumət-PKK görüşləri" adlı kitabda çoxlu sayda maraqlı informasiyalar yer alıb. Bunlardan biri də, siyasi liderlərin Öcalana göndərdiyi hədiyyələrdir!

Öcalanın 17 mart 1993-cü ildə atəşkəslə bağlı mətbuat konfransı keçirəcəyini elan etmişdi.

Bu atəşkəsdən əvvəl baş nazir Süleyman Dəmirəl köməkçisi İsmət İmsəti Bekkaya, Öcalanın yanına göndərir.

Bu görüşlə əlaqədar Dəmirəlin müşaviri İlknur Çevik belə deyir:

"Dəmirəl, "atəşkəsi elan edərkən, səliqəli geyinsin" demişdi. İmsət "Vakko" firmasından keyfiyyətli qalstuk aldı. Öcalan atəşkəs elanı üçün təşkil etdiyi mətbuat konfransında kostyum geyindi və bizim göndərdiyimiz qalstuku taxdı."

# Türkiyə Şimali İraqda hərbi baza qurmaq istəyir

*Qəndil dağı ətrafındakı Ranya və Çaykuma bölgələrində hərbi baza yaradılması zəruri sayılır*

Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı PKK terror təşkilatının bazasının və rəhbərliyinin olduğu Qəndil dağında hərbi əməliyyat aparmaq üçün Şimali İraqda hərbi baza qurmağı vacib sayıb və bununla bağlı istəyini Türkiyə hökumətinə çatdırıb. Lent.az-ın "Vatan" qəzetinə istinadən verdiyi məlumata görə, Türkiyə hökuməti Baş Qərargahın bu istəyini iki həftə əvvəl Ankarada olan Şimali İraq Federal Kürdüstan Bölgəsinin daxili işlər naziri Kerim Sincariyə çatdırıb.

Türkiyə hökuməti istəyini artıq İraq mərkəzi hökumətinə də bildirib. İran hökuməti də PKK-nın bir qolu olan PJAK-a qarşı Qəndildə hərbi əməliyyat keçirmək niyyətində olduğu üçün İraq hökuməti və Şimali İraq Federal Kürdüstan Bölgəsinin rəhbərliyi vəziyyətdən çıxış yolu axtarır. Şimali İraq Federal Kürdüstan Bölgəsinin rəhbərliyi Türkiyədən oktyabr ayına qədər vaxt istəyib və bu müddət ərzində PKK-nın Türkiyəyə qarşı əməliyyatları dayandırmağa razı salmağa ümid bəsləyirlər. Bu həftə Şimali İraq Federal Kürdüstan Bölgəsinin baş naziri Neçirvan Bərzani və Kerim Sinxari yenidən Ankaraya gələcək. Ancaq onlardan qabaq bu gün Türkiyə Xarici İşlər Nazirliyinin müşaviri Feridun Sinirlioğlu Bağdada gedir və İraq hökumətinin kürd əsilli xarici işlər naziri Hoşyar Zebari ilə görüşəcək. O, daha sonra Şimali İraq Federal Kürdüstan Bölgəsinin inzibati mərkəzi Ərbilə gələcək.

Əgər oktyabra qədər PKK terror təşkilatı ilə razılıq əldə olunmazsa, o halda Türkiyə ordusu Qəndil dağı və ətrafını mühasirəyə alacaq. Məhz bu hərbi əməliyyatın effektli aparılması və PKK terror təşkilatının qol-qanadının tam bağlanması üçün Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahı Şimalı İraqda, Qəndil dağı ətrafındakı Ranya və Çaykuma bölgələrində hərbi baza yaradılmasını zəruri sayır. Bu bölgələr əlverişli quru yollarının üzərində yerləşir.





## Türkiyədə PKK liderlərindən biri həbs edilib

Kürd Fəhlə Partiyasının (PKK) liderlərindən biri bazar ertəsi səhər İstanbulda həbs edilib. Bu barədə CNN Turk telekanalı xəbər verib. Türkiyə baş nazirinin müavini Bülənd Arıncın sözlərinə görə, həbs edilənin adı hələlik təhlükəsizlik qaydalarına görə açıqlanmır. O bildirib ki, qruplaşmanın həbs olunan lideri çoxlu sayda vacib məlumatlara malikdir. Türkiyə ilə PKK arasında münaqişə 25 ildən artıqdır davam edir. Bu münaqişə 40 mindən artıq insanın həyatına son qoyub. PKK BMT, eləcə də Ankaranın tamhüquqlu üzv kimi daxil olmağa çalışdığı Aİ tərəfindən terror təşkilatı kimi tanınıb.

## Adana'da 4 BDP'li gözaltına alındı

Adana'da polis tarafından yapılan ev baskınlarında 4 BDP'li gözaltına alındı.

Adana merkez Seyhan İlçesi Denizli Mahallesi'nde bulunan bazı evlere sabah saatlerinde polis baskın düzenledi. Evlerin araması ardından BDP üyesi olan Osman Güven, Mustafa Koç, Halit Oruç ve Emin Ok adlı kişiler polis tarafından gözaltına alındı. Gözaltı gerekçeleri öğrenilemeyen 4 BDP'li, Adana Emniyet Müdürlüğü Terörle Mücadele Şubesi'ne götürüldü.

Öte yandan aynı saatlerde BDP Denizli Mahalle Temsilciliği'nde de polisler tarafından arama yapıldığı belirtildi.



# ŞƏRƏF XAN BİDLİSİNİN «ŞƏRƏFNAMƏ» ƏSƏRİ KÜRD XALQININ TARİXİ MƏNBƏYİ KİMİ

**Əvvəli ötən sayımızda**

«Tarixe rişeyi-nəjad-kürd» əsərinin müəllifi Ehsan Nuri həmin əsərində «Şərəfnamə»dən çoxlu faktlar göstərmişdir (50, 47).

İran tədqiqatçılarından Nəsrulla Fəlsəfi 1956-cı ildə çap etdirdiyi «I Şah Abbasın həyatı» əsərində «Şərəfnamə»dən çoxlu faktlar gətirir və onun müəllifinin qısa tərcümeyi-halını verir (125, 240).

1957-ci ildə SSRİ EA tərəfindən nəşr olunan «Ön Asiya xalqları» əsərinin redaksiya heyəti «Şərəfnamə»dən tarixi bir mənbə kimi istifadə edərək, onun müəllifini «Kürd salnaməçisi Şərəfəddin» olduğunu qeyd edir.

V.Nikitin 1956-cı ildə fransız dilində nəşr etdirdiyi «Kürdlər» adlı əsərini yazarkən «Şərəfnamə»dən tarixi mənbə kimi istifadə etmişdir (23). O, həmin əsərində Kürdüstanın tarixi, coğrafiyası, kürdlərin mənşəyi, adət və ənənələri haqqında maraqlı məlumat verir. Əsər 1964-cü ildə rus dilinə tərcümə edilmişdir.

1958-ci ildə çapdan çıxan «Azərbaycan tarixi» nin I cildində XVI əsr Səfəvilər dövlətinə aid bəzi məlumatlar «Şərəfnamə»dəki qeydiyyata əsasən göstərilmişdir (34).

M.X. Nemətova 1959-cu ildə çap olunan «Şirvanın XIV-XVI əsr tarixinin öyrənilməsinə dair» (39) adlı əsərini yazarkən Bidlisinin «Şərəfnamə» əsərindən tarixi bir mənbə kimi istifadə etmişdir.

Kürd tarixçisi Şakir Xəsbak 1959-cu ildə yazdığı «Kürd və kürd məsələləri» adlı əsərində XVI əsr kürd tarixinə aid bir neçə faktı «Şərəfnamə»yə əsasən yazmışdır (80, 25).

Ümumiyyətlə, XVI əsr Yaxın və Orta şərq tarixi ilə məşğul olan bir sıra müasir burjua tarixçiləri «Şərəfnamə»dən tarixi bir mənbə kimi istifadə etmişlər.

Sovet tədqiqatçılarının əsərlərində «Şərəfnamə» nin hər iki cildində verilmiş tarixi faktları daha çox görmək mümkündür. S.Aşurbəyli öz əsərində «Şərəfnamə»nin adını xüsusilə qeyd edir və onun fransız nəşrindən tarixi bir mənbə kimi istifadə etdiyini göstərir (10, 322).

A.Ə.Rəhmani 1960-cı ildə nəşr olunan «Tarixe aləmarayi Abbasi Azərbaycan tarixinin mənbəyi kimi» əsəri üzərində işləyərkən «Şərəfnamə»nin hər iki cildindən tarixi bir mənbə kimi istifadə etmişdir. Müəllif XVI əsrin sonu üçün əsas mənbələri qeyd edərkən, «Şərəfnamə»ni birinci sırada göstərir və onun müəllifinin qısa tərcümeyi-halını verir (28).

O.Ə.Əfəndiyev 1961-ci ildə nəşr etdirdiyi «XVI əsrdə Azərbaycan Səfəvi dövlətinin təşkili» adlı əsərində «Şərəfnamə»yə istinad edərək qeyd edir ki, bu əsər Səfəvi dövrü ilə məşğul olan tədqiqatçılar üçün Qızılbaş dövlətini xarakterizə etmək nöqteyi-nəzərindən çox faydalı, dövrün hadisələrindən bəhs etməkdə isə obyektiv xarakterə malikdir (33).

Sovet şərqşünaslarından O.L.Vilçevski 1961-ci ildə çap etdirdiyi «Kürdlər» adlı əsərində kürd xalqının tarixinə və mədəniyyətinə aid bir sıra materialları«Şərəfnamə»dən istifadə edərək vermişdir (13, 98-159).

